Azərbaycan.- 2023.- 3 avqust.- S. 8.

# Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762, № 12, maddə 973; 2010, № 7, maddə 587; 2011, № 6, maddə 485, № 7, maddə 593; 2012, № 5, maddə 410; 2013, № 1, maddə 16, № 11, maddə 1267; 2016, № 1, maddə 12; 2017, № 4, maddə 522, № 5, maddə 752, № 11, maddə 1976; 2018, № 5, maddələr 855, 878, № 7 (I kitab), maddə 1440; 2019, № 1, maddə 23, № 7, maddə 1199, № 12, maddə 1899; 2020, № 6, maddə 669; 2021, № 7, maddələr 711, 715; 2022, № 6, maddə 591, № 7, maddə 703; 2023, № 2, maddə 199, № 4, maddə 445) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2.9-cu, 131.1-ci, 132.1-ci və 132.2-ci maddələrdə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

2. 19-cu fəslin (hər iki halda), 131-ci və 132-ci maddələrin adlarında, 131.2-ci maddənin ikinci cümləsində ismin müvafiq hallarında "Maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2023-cü il*